BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Sosial-siyasi elmlər seriyası* *2012*

**UOT 340.1; 321.01**

# HÜQUQ NİHİLİZMİN FORMALARI

**E.N.HƏMİDOV**
***Bakı Dövlət Universiteti***
***nelmaddin@yahoo.com***

*Məqalədə ən əvvəl qeyd olunur ki, uzun illər hüquqi nihilizm cəmiyyətimizdə iki formada çıxış edirdi: 1) ideoloji səviyyədə hüququn gələcəkdə ümumiyyətlə meydandan kənarlaşdırılması bəyan olunurdu; 2)praktiki sahədə hüquqtətbiqetmə və hüquq-mühafizə orqanları hüquq və qanunu deyil, məqsədəuyğunluğu üstün tuturdular. Bu da hüququn təşkilati, nizamlayıcı və qoruyucu əhəmiyyətinin zəifləməsinə səbəb olmuşdur.*

*Məqalədə həmçinin qeyd olunur ki, hüquqi nihilizm hüququn mühüm sosial dəyər olmasını inkar edir və hüquqi nihilizmin ifadə formaları hər bir halda hüquq məzmununun tərkib elementi qismində çıxış edən hüquq düşüncəsinin deformasiyası ilə sıx bağlıdır. Bununla əlaqədar müvafiq neqativ sosial hadisənin aradan qaldırılması ilə bağlı bəzi dəyərli təkliflər irəli sürülür.*

**Açar sözlər:** hüquqi nihilizm, hüquq məzmunu, sosial dəyər

Hüquqi nihilizmin ifadə formalarını tədqiq edərkən ən əvvəl hüquq subyektləri tərəfindən qəsdən qanunların və digər normativ hüquqi aktların pozulmasını qeyd etmək lazımdır. Bu pozuntuların əksəriyyətini cinayət qanunvericiliyi tərəfindən cəzalandırılan əməllər, həmçinin mülki deliktlər və inzibati xətalar təşkil edir. Məlumdur ki, ümumi cinayətkarlığın dərəcəsi rəsmi statistika tərəfindən təqdim olunan göstəricidən yüksəkdir. Bu gün sosial-siyasi quruluşun yeniləşdirilməsi, iqtisadi fəaliyyətin inkişafı şəraitdə ictimai münasibətlərin bir hissəsinin kriminallaşmış ünsürlərdən azad edilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi xüsusi önəm daşıyır. Hüquqi bazanın mükəmməl olmaması, sosial sahədə dövlət siyasətinin zəifliyi, cəmiyyətin mənəvi və intellektual potensialının aşağı düşməsi cinayətkarlığın (xüsusilə onun təşkil olunmuş formalarının və korrupsiyanın) artmasına təkan verir. Bəzən hüquq subyektləri (vətəndaşlar, vəzifəli şəxslər, dövlət orqanları, ictimai təşkilatlar) öz davranışlarını hüquqi normaların tələblərinə uyğunlaşdırmırlar, əksinə, öz "anlayış"larına uyğun yaşamağa və hərəkət etməyə çalışırlar.

Bu baxımdan qeyd etmək lazımdır ki, qəbul edilmiş qanunun göstərişlərinin nəzərə alınmaması hüquqi vakuumun sərbəst mülahizə vasitəsilə doldu-

rulmasından təhlükəlidir. Belə kütləvi hüquq itaətsizliyi hüquq düşüncəsinin olduqca aşağı səviyyədə olmasının və lazımi hüquqi mədəniyyətinin olmamasının nəticəsidir. Belə ki, əgər müasir insan vətənpərvərliyin mənasına şübhə ilə yanaşırsa və ya sadəcə hamılıqla qəbul edilmiş dəyərləri rədd edirsə, onun hüquqi şüur barəsində, onun ictimai həyatda zəruriliyi haqqında düşünməsini iddia etmək sadəlövhlük olardı. Bu cür vəziyyətin mövcudluğu müasir insanın əsasən özünün şəxsi hüquq və imtiyazları barəsində, imkan dərəcəsində arzuolunmaz nəticələrə məruz qalmadan onların özünəməxsusluğunun təsbit olunmasını və dairəsinin genişləndirilməsi haqqında düşünməsi ilə əlaqədardır. Lakin ölkədə qüvvədə olan hüququn "canlı" hüquq düşüncəsindən kənar tətbiqinin qeyri-mümkünlüyü, belə hüquq tərəfindən nə ailənin, nə Vətənin, nə dövlətin, nə ictimai qaydanın, nə də əmlakın mühafizəsinin təmin edilməməsi barədə, təəssüflər olsun ki, müasir insan fikirləşmir. Bu öz növbəsində məntiqi olaraq iki mənfi nəticəyə gətirib çıxarır:

1) ölkədə qüvvədə olan hüququn məzmunu təkmilləşə bilmir və mövcud hüquq bütövlüklə pislənilir və dəyərsiz tənzimləmə vasitəsi kimi rədd olunur;

2) tədricən hüququn təşkilati, nizamlayıcı və qoruyucu əhəmiyyətinin zəifləməsi baş verir. Buradan belə bir qənaətə gəlmək olar ki, bu zaman yalnız hüquqi bazanın təkmilləşdirilməsi kifayət deyil.

Hüquqi nihilizmin forması kimi ziddiyyətli, bəzən isə ümumiyyətlə bir-birini inkar edən hüquqi aktların qəbul edilməsi təcrübəsi çıxış edir. Belə ki, bəzən böyük sayda qəbul olunan qanunqüvvəli hüquqi aktların ayrı-ayrı növləri arasında lazımi səviyyədə təşkil edilməmiş uzlaşmanı, uyğunsuzluğu müşahidə etmək olar. Eyni zamanda nizamlanmaya ehtiyacı olan lakin müəyyən səbəblərdən hüquq tərəfindən tənzimlənməmiş xeyli dərəcədə ictimai münasibətlərin mövcudluğunu qeyd etmək lazımdır. Həmçinin ehtiyac duyulmadığı halda ictimai həyatın bəzi sahələrinin olduqca ətraflı tənzimlənməsi də özünün mənfi təsirini bildirir. Bütün bunlar hüquqi qaydanın pozulması ilə nəticələnir. Təəssüf ki, hal-hazırda bəzi dövlət qulluqçuları, əvvəlki dövrlərdə olduğu kimi, qanunları deyil, müxtəlif təlimatları rəhbər tutur. Həmin təlimatlarda vətəndaşların qanunlarda nəzərdə tutulmuş başlıca hüquqlarının əsassız məhdudlaşdırılması üzrə əlavə vəzifələrin müəyyənləşdirilməsi dözülməzdir, çünki belə bir mühitdə bürokratik özbaşınalıq, hüquqi nihilizm üçün əlverişli şərait yaranır.

Müasir dövrdə qanunçuluğun siyasi, ideoloji və s. qəbildən olan məqsədəuyğunluq mülahizələri ilə əvəz olunması hüquqi qaydanın tam ləğv edilməsi ilə nəticələnə bilər, çünki bu zaman rəsmi dövlət orqanları və vəzifəli şəxslər tərəfindən hüquqi dəyərlərin müdafiəsinin qeyri-hüquqi məkana çıxması baş verir. Subyektin məqsədəuyğunluq mülahizələrinin müxtəlif dərəcədə ifadə oluna bilməsinə baxmayaraq, hər bir halda bu, qanunun "kənarlaşdırılmasına" gətirib çıxarır. Təəssüflər olsun ki, hal-hazırda "ali məqsədlər" naminə qanunun göstərişlərindən imtina edilməsinin mümkünlüyü barədə subyektiv müla-

hizə bəzi dövlət qulluqçularının fəaliyyətində müşahidə olunur və bu demokratiyanın qanunçuluqdan kənar bərqərar etmək cəhdlərinə gətirib çıxarır.

Hər bir halda, ən qüsurlu qanun məqsədəuyğunluq mülahizəsindən əlverişlidir, çünki sonuncu dəqiq müəyyənləşdirilmiş çərçivəyə malik deyil. Başqa sözlə, siyasi məntiqin hüquq üzərində bərqərar olması yolverilməzdir. Lakin qeyd olunanlara baxmayaraq, müəyyən şəraitdə qanunçuluğun və asayişin qorunmasının təmin edilməsi bəhanəsi ilə bəzi dövlət strukturları və vəzifəli şəxslər tərəfindən gücün tətbiqi və ya insan hüquqlarının pozulması halları baş verir. Bu müəyyən mənada hüquqi konformizm təzahürüdür. Həmin halda hüququn aliliyi və qanunçuluq ideyaları qeyd olunan hüquq subyektləri tərəfindən müvafiq şəraitə uyğunlaşdırılmaqla cəmiyyətin xeyrinə deyil, əksinə, onun ziyanına istifadə olunur.

Qeyri-demokratik dövlətlərdə qanunlara adətən ciddi və sədaqətlə əməl olunmasına baxmayaraq, bu həmin dövlətlərin demokratik və ya hüquqi olmasına dəlalət etmir. Bu onunla izah olunur ki, demokratiya ən əvvəl şəxsiyyətin sərbəstliyinin, onun hüquq və azadlıqlarının hakimiyyətin özündən müdafiəsini ehtiva edir.

Hüquqi nihilizmi "qidalandıran" ciddi bir amil insan hüquqlarının (xüsusən yaşamaq hüququnun, ləyaqət, şərəf, mənzil, mülkiyyət və təhlükəsizlik və s. hüquqların) pozulmasıdır. Zəif hüquqi müdafiə şəxsiyyətdə qanuna, dövlətin cəmiyyətdə qaydanın və asayişin təmin etməsinə, hüquq mühafizə orqanlarının vətəndaşları cinayətkar təcavüzdən qorumaq imkanına qadir olmasına olan inamı sarsıdır. Hüququn "gücsüzlüyü" barədə formalaşan mülahizə hüquqa olan pozitiv münasibətə qarşıdır və bu səbəbdən müvafiq qəzəbin, narazılığın, etirazın meydana gəlməsi ilə nəticələnir. Belə bir vəziyyətdə hüquq sanki özü nihilizmin səbəbi kimi çıxış edir. Belə ki, cinayətkar təcavüzə (zorlama, oğurluq, soyğunçuluq və s.) məruz qalmış vətəndaşların bir qismi müvafiq hüquq mühafizə orqanlarına dərhal müraciət etmir, çünki onlarda aidiyyəti orqanların imkanlarına olan inam çox zəifdir. Həmin insanlar hüquqa etinasızlıq etməklə onun möhkəm təminat və etibarlı dayaq olmasını qəbul etmirlər. Belə bir mühitdə hətta qanunun bilavasitə qadağalarına riayət edən vətəndaşlarda mövcud hüquqi institutlarda nihilizmin formalaşması qeydə alınır. Təəssüflər olsun ki, ali konstitusiya səviyyəsində insanın təbii hüquq və azadlıqlarının tanınmasının və təsbit olunmasının təkmil formada baş verdiyi bir zamanda praktiki fəaliyyət sahəsində hələ də onların müvafiq üsullarla tam təmin olunması aşağı səviyyədədir. Halbuki öz hüquqlarını həyata keçirmək sahəsində real imkanların daralması vətəndaşda hüquqi məyusluğun yaranması ilə nəticələnir.

Müasir dövrdə hüquqi nihilizmin təzahürlərinə qarşı ənənəvi üsullarla mübarizənin aparılması səmərəsiz olduğundan yeni düşünülmüş qeyri-adi tədbirlər görmək lazımdır. Bu gün hüququn xalqa daha da "yaxınlaşdırılma"sı, kütləvi düşüncənin möhkəmləndirilməsi üçün işlərin görülməsinə ehtiyac var.

Belə ki, xalqın öz qanunları barəsində geniş məlumatın olması, onların dəyərləndirilməsi həmin qanunların riayət olunmasına, vəzifələrin yerinə yetirilməsinə yardım edir. Hüquq real davranışın meyarı olmalıdır.

Sovet hakimiyyəti dövründə hüquqi nihilizm iki formada çıxış edirdi:

1) nəzəri (ideoloji). Bu zaman dövlət səviyyəsində dövlət və hüququn gələcəkdən ümumiyyətlə, meydandan çıxması, ümumdünya proletar inqilabının insan hüquqlarına nisbətən üstünlüyü, kommunist partiyasının qərarlarının qanunlardan üstün mövqe tutması, iqtisadiyyata və siyasətə nisbətdə hüququn ikinci dərəcəli olması barədə ideyalar bəyan olunurdu;

2) praktiki. Məsələn, rəsmi ideologiyanın istiqamətinə uyğun olaraq həmin dövr əxlaqi baxımdan köhnəlmiş, bəyanat və şüar yönümlü, dəqiqsizliyi ilə səciyyələnən, bəzən bir-birinə zidd olan böyük sayda normativ hüquqi aktlar meydana gəlmişdir. Geniş yayılmış qüsurlu təcrübəyə əsasən çoxsaylı təlimat və ya idarə əmrləri qəbul olunmadan yeni qanun tətbiq edilmirdi. Təbii ki, qanuna göstərilən belə hörmətsizlik münasibəti cəmiyyətin hüquqi deqradasiyasına gətirib çıxarırdı. Bununla yanaşı, hüquqtətbiqetmə və hüquq-mühafizə orqanları öz fəaliyyətində hüquq və qanunu deyil, məqsədəuyğunluğu üstün tuturdular (1, 528-529).

Uzun illər ərzində "kütləvi şüur səviyyəsində qanun ali hakimiyyətin ifadəsi kimi dərk edildiyi halda, fərdi səviyyədə qanun azad iradəni və ya davranışı məhdudlaşdıran bir hədd kimi anlanılırdı. Onun şərtsiz xarakteri mübahisələndirilməni qeyri-mümkün edir. Lakin qanun tərəfindən insan azadlığının və iradəsinin realizəsi üçün maneələr müəyyənləşdirməsi onun göstərişlərindən kənaraçıxma halları üçün imkan yaradır və bununla kütləvi şüurda münasibətdə dünya anlamını mənasız edir" (2, 35).

Müasir dövrdə hüquqi nihilizmin üç formasından bəhs etmək olar. Hüquqi nihilizmin birinci forması hüquq qaydalarını hüquqazidd qaydalardan aydın şəkildə fərqləndirmək qabiliyyətinə malik olmayan sadəlövh, məhdud hüquqi düşüncənin daşıyıcıları arasında geniş yayılıb. Subyekt hüquq kimi onun maraqlarına və dünyagörüşünə uyğun olan dəyərləri hesab edir. Öz maraqlarını təmin edərkən subyekt arzu etdiyi, iradəsinə münasib olan münasibətləri, qaydaları hüquq kimi dəyərləndirir.

Hüquqi nihilizmin ikinci formasını şüurlu yalan təşkil edir. Hüquqi nihilizmin bu forması bəzi hüquq subyektlərinin digər subyektlər üçün hüquqi illüziyaların yaradılmasında müşahidə olunur. Aldadılmış hüquq subyekti digərlərin onunla hüquqauyğun davranılmasına inanır və bu səbəbdən öz münasibətini bildirmir.

Hüquqi nihilizmin üçüncü formasını hüquq pozuntusu təşkil edir. Bu halda subyektlər özləri bilavasitə qeyri-hüquqi davranış qaydasının hökm sürməsini arzulayırlar.

Hüquqi nihilizm özünü müxtəlif formalarda göstərir. Lakin nihilizmin hər hansı ifadə forması hər bir halda hüquq məzmununun tərkib elementi

qismində çıxış edən hüquq düşüncəsinin deformasiyası ilə sıx bağlıdır. Bunu rəhbər tutaraq elmi təhlil zamanı söhbətin qanunun deyil, yalnız hüququn inkar edilməsindən getməsini nəzərə almaq lazımdır. Belə ki, hüquqi nihilizm konkret qanunu və qanunvericilik sistemini deyil, məhz hüququn sosial dəyər olmasını və bütövlükdə mövcud hüquqi qaydanı inkar edir (3, 11). İctimai şüurun ən yüksək pilləsində, o, ideoloji cərəyanlar və nəzəri doktrina qismində (məsələn, anarxizm, sol radikalizm və s.) çıxış edir. Adi kütləvi şüur və milli psixologiya səviyyəsində hüquqi nihilizm mənfi münasibət, davamlı stereotiplər şəklində ifadə olunur və dövlət idarəçiliyi daxil olmaqla ictimai təcrübənin müxtəlif sahələrində öz əksini tapır.

Adi hüquqi nihilizm hüquqi məlumatsızlıq, skeptik stereotiplər, hüquqa inamsızlıq kimi amillərin təsiri altında formalaşır. Adi hüquqi nihilizm əsasən cəmiyyətin texniki, elmi və yaradıcılıq sahələrində fəaliyyət göstərən ziyalılar arasında geniş yayılıb və həmişə ümummədəni və təhsil səviyyəsinin aşağı olması ilə şərtlənmir. Hüquqi nihilizmin daha bir ifadə formasını avtonom hadisə kimi özünü büruzə verən idarə (bürokratik) hüquqi nihilizmi təşkil edir.

Hüquqi nihilizmi hüquqi mentalitet anlayışından fərqləndirmək lazımdır. Sonuncunu daha mürəkkəb, ziddiyyətli, eyni zamanda orijinal sosial və hüquqi fenomendir. Məsələn, keçmiş Sovet cəmiyyətinin hüquqi mentaliteti hüquqa münasibətdə əvvəlcədən özünün "hörmətsiz", neqativ münasibəti ilə seçilirdi. Təəssüflər olsun ki, hal-hazırda keçmiş hüquqi mentalitetin həmin səciyyəsi cəmiyyətin ictimai həyatının köklü şəkildə yenidən təşkil edildiyi bir şəraitdə özünü müxtəlif formalar vasitəsilə göstərir.

Beləliklə, müasir hüquq nəzəriyyəsində yalnız hüquqi nihilizmin mahiyyətinə münasibətdə deyil, həmçinin onun mövcudluğuna, təzahürünə, dərəcələrinə və formalarına dair vahid yanaşma formalaşmayıb. Hüquqi nihilizmin hüquq düşüncəsinə, hüquqyaratmaya, bütövlükdə hüquqi reallığa təsiri hüquq ədəbiyyatında birmənalı qəbul olunmayıb.

İdeoloji səviyyədə mövcud olan hüquqi nihilizmdən cəmiyyətimiz artıq azad olub. Müasir hüquqi təfəkkür cəmiyyətin maddi problemlərinə diqqət yetirməklə nəzəri zirvədən enərək daha realist səciyyəyə malik olub. Bu, həmçinin cəmiyyətdə hüquqi pozitivizmin güclənməsi ilə əlaqədardır. Bu da təbiidir, çünki hüquqi nihilizmin elmi dairədə mövqe tutması tez bir zamanda hüquqi nihilizmin həmçinin cəmiyyətin praktiki sahəsinə tam "nəzarət" etməsi ilə tamamlanır. Hüquqi pozitivizmin tam hökmranlığı şəraitində hüquq elmi əsas məsələlərin həllindən uzaqlaşır və yalnız xırda, ikinci dərəcəli məsələlərin araşdırılması ilə məşğul olur. Beləliklə, nəzəri səviyyədə mövcud olan hüquqi nihilizm həmçinin pozitiv hüquqa "təsiretmə"də iştirak edə bilər.

Şübhəsiz, cəmiyyətdə qanunların göstərişlərinə ciddi şəkildə riayət olunması və icrası mühitinin bərqərar olması qanunun göstərişlərini əməl etməyən şəxslərin mövqeyinin xeyli dərəcədə sarsıtmaq ixtiyarına malikdir. Bu gün əsas diqqəti məhz qanunların icrası ilə bağlı problemlərə yönəltmək

zəruridir. Qanunların həyata keçirilməməsi köhnə ənənədir və onun aradan qaldırılması olduqca vacibdir. "Hal-hazırda vətəndaşlar XX əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəllərində istifadə etdikləri protest hüquqi-siyasi davranışa deyil, siyasi-hüquqi "proseslərin fəal iştirakçısı olmaqla, ümummilli məsələlərin həllində vətəndaş mövqelərini bildirməkdə maraqlıdırlar" (4, 154).

Nəhayət, Azərbaycan Respublikasının "Korrupsiyaya qarşı mübarizə haqqında" 13 yanvar 2004-cü il tarixli Qanunun (5) təkmilləşdirilməsi zəruridir, çünki korrupsiya ölkənin iqtisadiyyatı və təhlükəsizliyi üçün dəhşətli təhlükədir. O, "dövlət və ictimai münasibətləri tənzim edən qanunlar nüfuzdan düşür, dövlət nümayəndələrinin tərəfindən vətəndaşların cinayətkarlardan müdafiəsizliyi formalaşır" (6, 87).

Dövlətdə düşünülmüş sosial-iqtisadi siyasətin həyata keçirilməməsi şəraitində hüquqi nihilizmin fəsadlarının aradan qaldırılması qeyri-mümkündür, çünki cəmiyyətdə olduqca zəngin və yoxsul sosial təbəqələrin meydana çıxması mənfi hüquqi nəticələrin yaranmasına səbəb olur.

Müasir dövrdə hər hansı qanunun mövcudluğunun inkar edilməsi yolverilməzdir, çünki belə münasibət cəmiyyətin normal fəaliyyətinə təhlükə yaradır və sonda anarxiyaya gətirib çıxara bilər. Bu təhlükə hüquqi qaydanı, qanunçuluğu, demokratik qaydaları və s. ümumbəşəri dəyərləri pozmaq istəyən ünsürlərdən irəli gəlir və onların əlində "həqiqi hüquq"un bərqərar edilməsi şüarı ilə müvafiq dəyərlərin "yenidən baxılması" məqsədinə xidmət edir.

"Nihilist inkaretmə yanaşması təsdiq edir ki, hüquq norması həqiqətən səmərəli və dəyərlidir, lakin subyekt onun aktiv inkar edilməsi üçün cəhdlər göstərir" (7, 43). Başqa sözlə, hüquqi nihilizm hüququn mühüm dəyər olmasını inkar edir. Bu halda qanunvericinin hüquqyaratma prosesi zamanı, bir qanunun digər qanun ilə əvəz edilməsi istiqamətində fəaliyyətinin hüquqi nihilizm kimi təqdim edilib-edilməməsi məsələsi gündəmə gəlir, çünki mahiyyət etibarilə burada köhnə qanunun məzmunu tam inkar edilir. Fikrimizcə, qanunun inkar olunması hər zaman hüquqi nihilizmin mənfi, neqativ ifadə forması kimi qiymətləndirilməməlidir. Lakin dövlət hakimiyyəti tərəfindən özünün hər hansı səbəbdən mövcud hüquq göstərişlərinin ləğv edilməsi müəyyən mənada onun cəmiyyətdə nüfuzunun azaldılmasına, göstərilən etimadın zəiflənməsinə səbəb olur.

Dövlətin hər bir qanunu ədalət ideyasına əsaslanmalıdır. Qanunvericilik sisteminin təkmilləşdirilməsi məhz "köhnə" normaların ləğv edilməsindən, onların əvəzində yeni qaydaların müəyyən edilməsindən ibarətdir. Normanın köhnəlməsi özünü yalnız köhnə ictimai quruluşun yenisi ilə əvəz olunmasında büruzə vermir, bu həmçinin insanların əxlaqi duyğularının daha dərin və həqiqi olması səbəbindən artıq köhnə hüquqla tam təmin edilmədikdə baş verir.

Hüquqi nihilizmin mahiyyətinin hüquq düşüncəsinin bir xassəsi qismində nəzəri-hüquqi təhlili bu hadisəyə xas olan aşağıdakı ümumi müddəaları qeyd etməyə imkan verir:

- hüquqi nihilizm mövcud sosial-tarixi dəyərləri inkar edən sosial-siyasi təfəkkürün istiqamətidir;

- hüquq düşüncəsi kimi hüquqi nihilizm təsnifat meyarından asılı olaraq özünün müxtəlif formalarına, növlərinə və dərəcələrinə malikdir.

Hüquqi nihilizm anlayışının çox məna daşıması səbəbindən onun bir elmi termin kimi istifadə olunması tərəfimizdən problemli görünür. Fikrimizcə, müvafiq problemin aradan qaldırılması üçün aşağıdakı iki alternativ mülahizədən birini rəhbər tutmaq lazımdır:

1) çox məna daşıyan hüquqi nihilizm anlayışından imtina edib onu digər daha adekvat anlayışlarla əvəz etmək;

2) hüquqi nihilizmin daha mütənasib mənası barədə ümumi bir razılıq əldə etmək;

Vahid hüquqi nihilizm anlayışının olmadığı bir şəraitdə müvafiq terminin elmi mübadiləyə və peşəkar lüğətə daxil edilməsi üçün bu hüquqi hadisənin dərindən təhlilinə ehtiyac duyulur.

Hüquqi nihilizm öz radikal formaları ilə köhnə və mövcud hüquqi düşüncənin və hüquqi mentalitetin bariz təzahürüdür. Milli iqtisadiyyatın hazırkı durumu xidməti hüquqi nihilizmin güclü katalizatorudur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən iqtisadi fəaliyyətin lazımi hüquqi təminatının təşkilinə, onun hüquq-mühafizə komponentinin gücləndirilməsinə yönəlmiş siyasəti, təəssüf ki, dövlət qulluqçularının nihilist vərdişlərinin tam şəkildə aradan qaldırılmasına gətirib çıxarmayıb. Lakin bu istiqamətdə müəyyən müvəffəqiyyətlər əldə olunub və həmin nailiyyətlərin davamı olduqca önəmlidir. Bu həmçinin respublikanın rəhbərliyi tərəfindən qəbul olunmuş iqtisadi inkişaf proqramının tələblərindən irəli gəlir. Müvafiq proqram milli iqtisadiyyatın kompleks şəklində inkişafını nəzərdə tutur, qeyri-neft sahəsində istehsal olunan məhsulun artırılmasını və sosial məsələlərin həllini ehtiva edir.

Dövlət tərəfindən yeni tipli qulluqçuların hazırlanması üzrə fəaliyyətinin təkmilləşdirilməsi xidməti hüquqi nihilizmin aradan qaldırılması istiqamətində dövlət və cəmiyyət üçün xeyli fayda verə bilər. Bu məsələyə xüsusi diqqət ayırmaq lazımdır. Düzgün təşkil olunmuş hüquqi təhsil əvvəlcədən gələcək hakimiyyət nümayəndələrində qanunçuluq, hüququn aliliyi kimi prinsiplərin aşılanmasında yardımçı ola bilər. Təəssüf ki, uzun müddət dövlət xidmətində olan bəzi qulluqçular müvafiq yeni prinsipləri qəbul etmək istəmirlər.

Müasir dövrdə "hüquqi nihilizm iki miqyaslı üsulun - hüquqi təhsil və kütləvi informasiya vasitələrinin köməyi ilə aradan qaldırıla bilər. Lakin bu iki vasitə ilə şübhəsiz, müvafiq neqativ hadisəyə qarşı mübarizənin bütün metodları tükənmir. Qeyd olunan iki üsul hər bir insanın onun sosial statusundan asılı olmayaraq müvafiq məcburi səviyyəyə malik olması və bununla "hüquqi minimum" probleminin həlli üçün zəmin yaradır" (8, 7). Burada cari qanunvericiliyin müddəaları da xüsusi əhəmiyyət kəsb edir. Belə ki, "Kütləvi informasiya vasitələri haqqında" 7 dekabr 1999-cu il tarixli Qanununun 1-ci maddəsi-

nə əsasən "Kütləvi informasiya vasitələrindən istifadə, kütləvi informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri haqqında qanunvericiliyində nəzərdə tutulan hallardan başqa, məhdudlaşdırıla bilməz" (9).

Hüququn ən kəskin şəkildə inkar edilməsi onun sosial qayda ideyasının ifadəsi qismində çıxış etməsinin inkarıdır. Hüququn belə inkarı zamanı yalnız hüquq deyil, ümumiyyətlə, qanun əsasında sosial tənzimləmənin həyata keçirilməsinin mümkünsüzlüyü iddia olunur.

Beləliklə, hüquqi nihilizmin aşağıdakı formalarını qeyd etmək lazımdır:

1) zahiri ifadəsinin xarakterinə görə passiv (vəzifələrin icra olunmaması, qadağalara riayət olunmaması) və aktiv (sosial-hüquqi münaqişələrin birtərəfli özbaşınalıq kimi yozulan hərəkətlərlə həlli);

2) sosial subyektin növünə əsasən şəxsi, qrup və ümumsosial;

3) struktur ünsürlərinə görə emosional və rasional;

4) hüququn dərketmə dərəcəsinə görə adi, xidməti və peşəkar.

Bütün bunları hüquqi nihilizmim bu gün ən geniş yayılmış tipik ifadə formaları kimi qiymətləndirmək olar. Bununla yanaşı, hüquqi nihilizmin həmçinin digər ifadə formalarını (məhkəməyə hörmətsizlik, müvafiq idarəçilik orqanlarının fəaliyyətində uyğunsuzluq, digər orqanların səlahiyyətlərinin mənimsənilməsi və s.) qeyd etmək lazımdır.

**ƏDƏBİYYAT**


1. Скакун О.Ф. Теория государства и права: Учебник. Харьков: Консум, 2000, 704 с.
2. Скасырский И.В. Российская культурно-правовая традиция и ее институционализация в современных условиях: Дис. … канд. юрид. наук. Ростов-на-Дону, 2002, 177с.
3. Лушина Л.А. Нравственно-правовой нигилизм: генезис, сущность, формы: Автореф. дисс… канд. юрид. наук. Нижний Новгород, 2003, 28 с.
4. Şəfiyev Ü.A. İnsan-siyasət münasibətləri: sosioloji təhlil // Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2007, № 3, s. 145-154.
5. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 13 yanvar 2004-cü il tarixli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №3, maddə 125.
6. Şiriyev Z.M. Azərbaycan Respublikası qanunvericiliyində korrupsiyaya qarşı mübarizə // Qanun, 2007, №11, s. 81-92.
7. Федоренко К.Г., Щавинский Б.В. Правовой нигилизм и правовая позиция: философские и методологические аспекты соотношения // Философия права, 2002, №2, с. 42-47.
8. Кумыкова Л.Г. Правовой нигилизм в сфере прав человека как форма деформации правового сознания: Автореф. дисс… канд. юрид. наук. Нальчик, 2006, 22с.
9. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanunu //Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №2, maddə 82.

## ФОРМЫ ПРАВОВОГО НИГИЛИЗМА

**Э.Н.ГАМИДОВ**

**РЕЗЮМЕ**

В статье, в первую очередь, отмечается, что долгое время в нашем обществе правовой нигилизм выступал в двух формах: 1) теоретической (идеологической), когда вообще провозглашалась идея об отмирании в будущем права; 2) практической, когда правоприменительные и правоохранительные органы действовали в соответствии с принципом приоритета целесообразности перед правом. Все это привело к ослаблению организационной, регулирующей и охранительной роли права.

В статье также отмечается, что правовой нигилизм отрицает право как важнейшую социальную ценность и каждая из форм проявления нигилизма, так или иначе связана с деформацией правового сознания, являющегося неотъемлемым элементом содержания права. В этой связи предлагается ряд ценных рекомендаций по искоренению данного негативного социального явления.

**Ключевые слова:** правовой нигилизм, содержание права, социальная ценность

## THE FORMS OF THE LEGAL NIHILISM

**E.N.HAMIDOV**

**SUMMARY**

The article notes that for a long time in our society, legal nihilism has appeared in two forms: 1) theoretical (ideological), that generated the idea to wither of law away in future, 2) practical, when law enforcement bodies acted in accordance with the principle of priority before law. All these have led to weakening of the institutional, regulatory and protective roles of law.

The article also notes that legal nihilism denies the right as an important social value, and each of the forms of nihilism, is somehow connected with the deformation of the legal consciousness, which is an integral part of the content of law. A number of valuable recommendations are proposed for the elimination of negative social phenomena.

**Key words:** leqal nihilism, connected of law, social value